# Dövri mətbuat M.Hadi haqqında

## (Şairin 100 illik yubileyi münasibətilə qəzet və jurnallarda dərc olunan məqalələrdən sətirlər)







"XX əsrin böyük romantik şairi Məhəmməd Hadi irsini həyat haqqında düşüncələr kitabı adlandırmaq olar. Özü də elə bir kitab ki, onun "min kitab olan hər vərəqində" zamanın sarsıntılarından doğan həyacanların, o dövr ki insanın fikri, mənəvi aləmindəki təkamülün, dəyişikliklərin, toqquşmaların lövhələri canlanır".

Kamal Talıbzadə. Romantik şair.
**"Bakı" qəzeti,** 7 dekabr 1979.

***




“M.Hadinin istər ictimai-siyasi və fəlsəfi şerlərində, istərsə də hələ öyrənilməmiş elmi-pedaqoji məqalələrində maarif, məktəb, təhsil, tərbiyə məsələləri geniş yer tutur. Təlim və tərbiyə məsələlərinin həllində M.Hadi bir tərəfdən M.F.Axundovun, H.Zərdabinin yolu ilə gedir, digər tərəfdən XVIII əsr fransız marerialistləri, o cümlədən, Jan-Jak Russonun azad tərbiyə nəzəriyyəsinə tərəfdar çıxırdı”.

Mirabbas Aslanov. M.Hadinin təlim və tərbiyə haqqında fikirləri. **“Azərbaycan məktəbi”** jurnalı, 1979, №-6.

***




“Hadi yaradıcılığı boyu həmişə üçüncü aləməcan atdığı aləmə böyük ümidlər bəsləyib. Bu Hadinin məqalələrində də, şerlərində də, poemalarında da aydınca görünür”.

Namiq Babayev. Füzuli məsləkli şairimiz.
**“Azərbaycan”** jurnalı, 1979, dekabr №12.

***




“M.Hadi İstanbulda nəşr olunan “Tənin” qəzeti redaksiyasında işləyərkən, bir çox məşhur türk ədib və şairi ilə tanış olmuşdur. “Rübab”, “Şəhbal”, “Məhtab”, “Hilal” adlı qəzet və jurnallardakı yazılarında “həqiqəti” axtarmağa calışmışdır”.

N.Kərimov. Coğrafiya elmləri namizədi, R.Kərimov. Coğrafiya elmləri namizədi. Məhəmməd Hadinin səyahətləri.
**“Elm və həyat”** 1979, dekabr №-12.

***

“XX əsrin əvvəllərində Azərbaycanda nəinki bədii təfəkkür, həm də fəlsəfi fikir tarixində M.Hadi görkəmli yer tutur. M.Hadi məkanın və kainatın sonsuzluğu ilə yanaşı, zamanın, əsrlərin də sonsuzluğu, insan əməllərinin sonsuz zaman ərzində davam etməsi fikrini irəli sürürdü”.

Midhət Ağamirov. Fəlsəfə elmləri doktoru. Mütəfəkkir
**“Ədəbiyyat və incəsənət”** qəzeti, 7 dekabr 1979.

***

“Məhəmməd Hadi –şer məktəbidir. Onu oxuyan hər kəs sehrlənir, müdrik sözlərin tilsiminə düşür, təkrar-təkrar qayıdır, özü də bir az müdrikləşir”.

Fikrət Sadıq. Ümmandan damla.
**“Ədəbiyyat və incəsənət”** qəzeti, 7 dekabr 1979.



БҮТҮН ӨЛКӘЛӘРИН ПРОЛЕТАРЛАРЫ, БИРЛӘШИН!

ӘДӘБИЈЈАТ вә ИНҸӘСӘНӘТ

1979

Үммандан дамла



БҮТҮН ӨЛКӘЛӘРИН ПРОЛЕТАРЛАРЫ, БИРЛӘШИН!

КОММУНИСТ

Ҹүмә, 7 декабр 1979-ҹу ил.

ҮЛВИ ӘМӘЛЛӘР ШАИРИ

М. Һадинин анадан олмасынын 100 иллији

Аббас ЗАМАНОВ.

ЕЛМИ СЕССИЈА

***

"Vətənpərvərlik motivləri M.Hadi lirikasının ana xəttini təşkil edir. Hadi vətənilə, onun füsunkar təbiəti, dünəni, bu günü, sabahı ilə qırılmaz tellərlə bağlı idi".

Abbas Zamanov. Ülvi əməllər şairi.
**"Kommunist"** qəzeti, 7 dekabr 1979.

***

"M.Hadi yaradıcılığı klassik şərq şerinin tərkib hissəsidir. Ərəb, fars dillərini mükəmməl bilməsi şairin zəngin Şərq ədəbiyyatı xəzinəsindən faydalanmasına imkan yaratmışdı. İstedadlı sənətkar milli şerimizin aydan arı, sudan duru qaynaqlarını göz bəbəyi kimi qoruyur, ən gözəl, ən incə ənənələri davam və inkişaf etdirirdi".

Rəfiq Zəka. Hürriyyətə, ülviyyətə, qüdsiyyətə.
**"Ulduz"** jurnalı, dekabr 1980, №-1.